# Əsas vəzifələr uğurla yerinə yetirilib



**Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunan müşavirədə dövlətimizin başçısı hesabat dövründə diqqətçəkən ən mühüm tarixi hadisə kimi torpaqlarımızın işğaldan azad olunmasını vurğulayıb. Bildirib ki, Azərbaycan 44 gün ərzində tarixi qələbə qazanaraq əzəli torpaqlarını düşmәndən təmizləyib, işğalçıya sarsıdıcı zərbələr endirib və Ermənistanı məğlub edib.**

"Bizim şanlı Qələbəmiz bizim güclü iradəmizi, xalqımızın güclü əzmini bütün dünyaya nümayiş etdirdi", – deyən Ali Baş Komandan bir daha xatırladıb ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur və Azərbaycan siyasi, iqtisadi, hərbi gücü sayəsində qarşıda duran əsas vəzifəni şərəflə yerinə yetirib.

Prezident İlham Əliyev çıxışında ötən il ərzində ölkəmizin ictimai-siyasi həyatında nəzərə çarpan bir sıra önəmli məsələlərdən bəhs etməklə bərabər, iqtisadi sahədəki vəziyyət barədə də ətraflı danışıb. Hesabat dövründə iqtisadiyyatın 4 faizdən bir qədər çox azalmasına baxmayaraq, qeyri-neft sənayesinin 11 faizdən çox artdığını, kənd təsərrüfatında dinamik yüksəliş müşahidə olunduğunu, valyuta ehtiyatlarının qorunduğunu vurğulayıb.

Dövlətimizin başçısı ötən il dekabrın 31-də Cənub Qaz Dəhlizinin son seqmenti olan TAP tam istismara verildiyini, bununla da tarixdə ilk dəfə olaraq Azərbaycan qazının artıq Avropa məkanına çatdığını, beləliklə, Azərbaycanın mühüm bir tarixi nailiyyətə imza atdığını diqqətə çatdırıb.

Yeri gəlmişkən, xatırladım ki, Cənub Qaz Dəhlizinin son seqmenti olan TAP-ın tam istismara verilməsi ilə Azərbaycan tarixdə ilk dəfə öz təbii qazını Avropa bazarına birbaşa boru xətləri vasitəsilə çıxarmağa nail olub. Keçən il noyabrın 15-də TAP İtaliyanın qazpaylayıcı şəbəkəsinə uğurlu birləşdirildikdən sonra dekabrın 31-də kommersiya məqsədli təbii qaz Melendugno məntəqəsindən SNAM Rete Gas (SRG) qazpaylayıcı şəbəkəsi ilə İtaliyaya, Nea Mesimvria məntəqəsindən isə DESFA şəbəkəsi ilə Yunanıstan və Bolqarıstana çatdırılıb.

Beləliklə, dünyada təbii qazın ən çox idxal edildiyi Avropa qaz bazarına birbaşa çıxışı reallaşdıran Azərbaycan öz ixrac imkanlarını şaxələndirmiş oldu. Bu, ölkə iqtisadiyyatına əlavə dəyər qazandırmaqla yanaşı, həm də Azərbaycanın iqtisadi müstəqilliyinin güclənməsi deməkdir.

Bu möhtəşəm layihənin müəllifi və aparıcı qüvvəsi olan Prezident İlham Əliyev tərəfindən 7 il bundan əvvəl Azərbaycanın tərəfdaşları ilə birlikdə yekun investisiya qərarı verildi və 25 illik qaz alqı-satqısı haqqında müqavilələr imzalandı. Bəzilərinin vaxtı ilə mümkünsüz hesab etdiyi 3500 kilometr uzunluğunda bir-birinə bağlanan üç qaz boru xəttinin inşası isə uğurla başa çatdırıldı. Bununla da Azərbaycan qazının Avropaya ötürülməsi gerçəkləşdi.

Beləliklə, Avropa yeni mənbədən alternativ marşrut üzrə təbii qaz əldə etməklə öz enerji təhlükəsizliyini gücləndirəcək. Avropa daxilində hasilatın azalması bazarda əlavə qaz həcmlərinə ehtiyac yaradır və Azərbaycan qazı məhz bu ehtiyacın ödənilməsinə kömək edəcək. Beləliklə, köhnə qitə üçün Azərbaycanın əhəmiyyəti daha da artacaq.

Xatırladım ki, TAP Xəzər dənizinin Azərbaycan sektorundakı nəhəng "Şahdəniz" yatağından təbii qazı Avropaya daşıyır. 878 kilometrlik boru kəməri Türkiyə-Yunanıstan sərhədində, Kipoidə Trans Anadolu Boru Kəmərinə (TANAP) birləşir, Yunanıstan, Albaniya və Adriatik dənizindən keçərək, İtaliyanın cənub sahillərinə çatır.

Ötən il pandemiyanın yaratdığı müəyyən çətinliklərə baxmayaraq, həyata keçirilən islahatlar müsbət nəticələr verib. Bu, eyni zamanda, Azərbaycanın demokratik dövlət quruculuğu və bazar iqtisadiyyatı yolu ilə uğurla irəliləməsinə geniş imkan yaradıb, ölkəmizdə iqtisadi və siyasi sabitlik təmin edilib, Azərbaycanın beynəlxalq aləmdəki nüfuzu əhəmiyyətli dərəcədə yüksəlib.

Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunan müşavirədə də bu barədə ətraflı bəhs edib, beynəlxalq qurumların ölkəmizdə reallaşdırılan tədbirlərə yüksək qiymət verdiyini, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycanın reytinqinin artdığını, 190 ölkə arasında 28-ci yerdə qərarlaşdığını və 10 ən islahatçı ölkə sırasına daxil edildiyini bildirib. Dövlətimizin başçısı Davos Dünya İqtisadi Forumunun hesabatında Azərbaycanla bağlı uğurları da sadalayıb. Prezident İlham Əliyev işğaldan azad olunan torpaqlarda bu il geniş quruculuq işlərinin aparılacağını vurğulayıb, bununla bağlı tapşırıqlarını verib.

Sonda bir məqamı da vurğulamaq istərdim. Azərbaycan Prezidenti fəaliyyətində öz vətəndaşına daim diqqət və qayğı göstərir. Ölkəmizdə insan amili, onun rifahı, məşğulluğun təmin olunması, yoxsulluğun və işsizliyin aradan qaldırılması, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi dövlətimizin başçısının yürütdüyü siyasətin prioritet istiqamətlərini təşkil edir.

Bir sözlə, dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşının rifahı dayanır. Məhz bu kontekstdə Prezident İlham Əliyevin verdiyi qərarlar və görülən işlər bütün dünya üçün nümunədir. Bütün bunlar deməyə əsas verir ki, sosialyönümlü layihələrin icrası bundan sonra da uğurla davam etdiriləcək.

***İqbal MƏMMƏDOV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti 2021.- 8 yanvar.- S.6.